**UOT** 343.3/.7

**İsmayıl ƏMİRLİ**
*Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin*
*Polis Akademiyasının Kriminalistika kafedrasının müəllimi,*
*polis kapitanı*
*e-mail: emirliismayil@gmail.com*
DOI: https://doi.org/https://doi.org/10.62130/YCDL6673

# POZĞUNLUQ HƏRƏKƏTLƏRİNƏ GÖRƏ MƏSULİYYƏT

**XÜLASƏ**

*Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddəalarına nəzər yetirsək, şəxslərə qarşı söz atmaq, cinsi məzmunda narahatedici sözlər və hərəkətlər, şəxsin intim zonasına daxil olmaq və ya ona toxunmaq kimi əməllərə görə birbaşa məsuliyyət nəzərdə tutulmamışdır. Belə hərəkətlər cəmiyyətimizdə "pozğunluq" kimi qiymətləndirilir. Pozğun dedikdə isə əxlaqı pozulmuş və ya əxlaqsız şəxs başa düşülür. Ölkəmizdə gündəlik həyatda əsasən qadın cinsinə məxsus olan şəxslər küçələrdə hərəkət edərkən, ictimai nəqliyyatdan istifadə edərkən və yaxud hər hansı kütləvi tədbirdə şəxslər tərəfindən cinsi təcavüzə məruz qalırlar. Belə halların qarşısının alınması və həmin əməlləri törətmiş şəxslərin ədalətli şəkildə mühakimə edilməsi üçün "pozğunluq" müstəqil əməl kimi qiymətləndirilərək, törədən şəxs cinayət və inzibati məsuliyyətə cəlb olunmalıdır.*
***Açar sözlər:*** *cinsi azadlıq, cinsi toxunulmazlıq, pozğunluq, cinayət, məsuliyyət*

İnsanın cinsi azadlığını və ya cinsi toxunulmazlığını pozan, ailə institutunun nüfuzunu zədələyən əməllər ən qədim tarixlərdən bəri cəzalandırılmışdır. Zorlama cinayətinə tarixin müxtəlif dövrlərində və müxtəlif cəmiyyətlərdə cərimə, daş qalaq etmə, həbs, xədim etmə və edam cəzası kimi müxtəlif cəzalar tətbiq edilmişdir. Tarixən və bu gün cinsi cinayətlər ən ağır cinayətlərdən biri hesab olunur. Qədim cəmiyyətlərdə cinsi və dini tabular mövcud olmaqla, bu tabulara qarşı cinayətlər ciddi şəkildə cəzalandırılırdı. Şəxsi mülkiyyət hələ məlum olmadığı üçün şəxsə və mülkiyyətə qarşı cinayətlər anlayışı tabulara qarşı cinayətlərdən xeyli gec inkişaf etmişdir. İctimai həmrəylik bağını qıracaq qədər güclü olduğu üçün tabu sayılan və toxunulması qadağan edilən dəyərlər adı ilə cəzalandırılan və bu səbəbdən də ağır cinayət kimi səciyyələndirilən cinsi cinayətlərin cinayət qanununun inkişafına uyğun olaraq qanuna daxil edilməsi tez təşəkkül tapmışdır.

İnsanın azadlığı və toxunulmazlığı çoxsəpkili bir anlayışdır. Bu anlayış da şəxsiyyətin cinsi toxunulmazlığını və cinsi azadlığını əhatə edir. Başqa sözlə, kiminlə və hansı formada seksual tələbatın təmin edilməsi yetkin şəxsin hüququdur. Seksual münasibətlər insan həyatının ayrılmaz hissəsidir. Belə münasibətlər mərkəzi normalara, müəyyən hissəsi isə ailə qanunvericiliyinin normalarına əsaslanır və cinayətlərin nikahdankənar və nikahdaxili münasibətləri ilə realizə olunur.

Bugünkü qanunvericiliyimizdə demək olar ki, "Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər" başlığı altında araşdırılan əməllərin hamısı Roma hüququndan öz başlanğıcını götürür. Bu səbəbdən Roma hüququnun cinsi cinayətlərə dair müddəaları xüsusi əhəmiyyət kəsb edir.

Eramızdan əvvəl 8-ci əsrdə qurulan Roma hərbi, siyasi və mədəni inkişafı nəticəsində eramızdan əvvəl 1-ci əsrdə öz dövrünün ən böyük və ən güclü dövlətinə çevrilmişdir. Bu inkişaf və genişlənmə Roma cəmiyyətini dəyişməyə məcbur etmişdir. Dəyişikliyin gətirdiyi yeni problemlərə ictimai quruluşun uyğunlaşa bilməməsi və düzgün həllər tapa bilməməsi Roma ictimai qurulu-

şunun onurğa sütununu təşkil edən ailə institutunun qüdrətinin zəifləməsinə, yəni mənəvi çöküşünə və ailə həyatının korlanmasına səbəb oldu. Həmin dövrün müasir romalı kişi və qadınlarının müsbət yanaşdığı cinsi azadlıq zamanla təhrif edilmiş əlaqə formalarının yayılmasına səbəb oldu.

Qədim Romada əvvəlcə zorlama üçün xüsusi bir cəza yox idi. Zorlama cinayəti digər zorlama cinayətləri ilə birlikdə e.ə. II yüzillikdən etibarən xüsusi bir cinayət kimi məcəllədə öz əksini tapmışdır. Buna səbəb matriarxal (anaya bağlı ailə) rejimin hələ aradan qalxmadığı ibtidai tayfalarda zorlamanın cinayət sayılmamasının yaratdığı çətinliklər idi. Patriarxal (ataya bağlı ailə) rejiminin qurulması və onun bir qadının bir kişiyə aid olması zorlama əməlini müstəqil cinayət əməlinə çevirmişdir. Burada olan "Fücur" anlayışı bəzi dini əsaslı qadağaları "yaxın qohumlar arasında nikahın qadağan edilməsi" formasına çevirərək Roma hüququ sahəsinə daxil etmişdir. "Əxlaq kodeksi (Moribus)"-a görə bu əməl cinayət sayılırdı [9].

"Lex Iulia De Adulteriis Coercendis" Qanunu ilə evli və subay qadınlar nikahdankənar cinsi əlaqədə olduqda ciddi şəkildə cəzalandırılırdı [9]. Bu halda qeyri-rəsmi cinsi münasibətdə olan qadın və ya qızın atası qızı və onun məşuqunu öldürə bilərdi. Əgər qadın evli, məşuqu qul olsaydı, ər yalnız məşuqu öldürə bilərdi. Hər iki halda, əgər məşuq öldürülməzsə, sürgünə məhkum edilməli və malının yarısı müsadirə edilməli idi. Əgər qadın öldürülməsəydi, evli olduğu halda malının üçdə biri, evli olmadığı halda yarısı müsadirə edilirdi. Yustinian zamanında isə zina edən qadın monastıra həbs olunaraq orada yaşamağa məcbur edilirdi.

Roma cinayət hüququnda imperatorluq dövründə qullara qarşı zorlama törədilsə belə, bu cinayət sayılır və sanksiya kimi ölüm cəzası nəzərdə tutulurdu. Konstantinin verdiyi bir fərmanla qızların və qadınların qaçırılması da cinayət sayılır və ölüm cəzası sanksiya kimi qəbul edilirdi. Cinayətkarın qaçırılan qadınla evlənmək istəməsi və qadının razılığı cinayətkarın cəzalandırılmasına mane olmurdu. Yustinian dövründə homeseksuallıq, zorlama və iffətsizlik də qanunlarda cinayət kimi qəbul edilməyə davam edirdi [10].

Qədim Romada yaşamış hüquqşünas Domitius Ulpianusun "Digesta" mətnində yazdığı bir müddəada cinsi hücum və narahat etmə ilə bağlı məsələlər öz əksini tapmışdır. Belə ki, düzgün əxlaqlı qadın necə geyinməli olduğunu bilməlidir. Çünki qadının geyiminə görə edilmiş cinsi hücum və narahat etmənin ictimai təhlükəliliyi artır. Həmin dövrdə qadınları "materfamilias" (ailə başçısı və ya ailədə ən yaşlı olan qadın), "matron" (evli və ya ləyaqətli qadın), "fahişə" və qul geyimli olaraq xarakterizə edirdilər. Mətndə belə bir müddəa var ki, əgər şəxs qullara məxsus olan paltar geyinmiş gənc qızlara cinsi hücum edib, narahat edən şəxs yüngül cinayət törətmiş sayılır. Əgər şəxs "materfamilias" kimi deyil, bir fahişə kimi paltar geyinmişsə törədilən cinayətin ictimai təhlükəliliyi azalır. Həmçinin bir qadın "matron" kimi geyinməzsə və kimsə ona cinsi hücum edərək narahat edərsə iniuria (haqsızlıq) cinayəti törətmiş sayılacaqdır [9].

Bundan başqa, Babil dövlətində "Hammurapi Qanun"larında cinsi azadlıq və toxunulmazlıq ilə əlaqədar edilən bir çox hərəkət cinayət kimi qəbul edilmiş, zərərçəkmişə qarşı edilən hərəkətlərin mühakiməsi əsasən dövlət tərəfindən edilən "qisas"la cəzalandırılmışdır. Belə cinayətlərdə "şəxsi qisas" cəzası tətbiq olunmurdu [14]. "Hammurapi Qanun"larına görə öz qızı ilə cinsi münasibətdə olan ata sürgün cəzasına məhkum edilirdi. Gəlini ilə qeyri-rəsmi şəkildə cinsi əlaqədə olan qayınata suda boğularaq öldürülürdü. Atasının ölümündən sonra anası ilə cinsi əlaqədə olan oğul və ana yandırılaraq öldürülürdü. "Hammurapi Qanun"ları zinayı cinayət olaraq qəbul etmiş, qadın ilə kişinin iplə bağlanaraq suya atılmaq cəzası ilə cəzalandırılmasını nəzərdə tutmuşdur. Ümumiyyətlə, başqasının namusuna qarşı hər hansı əxlaqsızlıq edən kişi əsasən ölümlə cəzalandırılırdı [14].

Cinsi azadlıq və toxunulmazlıq əleyhinə olan cinayətlər İslam hüququnda zina anlayışı çərçivəsində öyrənilir. Zina tam fəaliyyət qabiliyyətli bir kişi ilə qadının (evlilik, evlilik şübhəsi və ya mülkiyyət) qeyri-rəsmi halda cinsi əlaqədə olmasıdır. Zina cinayətinin iki şərti var. Birinci şərt haram münasibətdir, ikinci şərt isə tərəflərin münasibətə könüllü olaraq girməsidir.

"Zina"nın İslam cinayət hüququ baxımından cinayət sayılması üçün onu törədənlərin evli olması şərt deyildir. Lakin əməl ailəli şəxslər tərəfindən törədilibsə, bu, çox daha ağır cəza tələb edən bir vəziyyətdir. Zina həm evli cütlüklərin nikahdankənar cinsi əlaqəsini, həm də subay və ya dul şəxslərin nikah müqaviləsinə əsaslanmayan cinsi əlaqəsini əhatə edir. "Zina" cinayətinin qorunan hüquqi faydası dəyərlərin, ümumi əxlaqın, iffətin və ailə institutunun qorunmasıdır [13].

Zina cinayətinin cəzası Quran və hədislərdə bildirilmişdir. Cəmiyyətdə sapqınlıq yaratdığı üçün Allahın haqqına girmək kimi qəbul edilmişdir. Zərərçəkmiş tərəf şikayət etməsə belə, başqa şəxslərin cinayətə şahid qismində şikayət etməsi mümkündür. Cinayət müəyyən edildikdən sonra dövlət başçısı belə cinayətkarı əfv edə və cəzasının müqabilində onunla danışıqlar apara bilməz.

Zina cinayətinin baş verməsi üçün əsas tərkib kimi tərəflər arasında təmas və ya cinsi əlaqə baş verməlidir. Cinsi əlaqəyə girmədən onların şəhvət ehtiyaclarını ödəmək niyyəti ilə başqa əməllər etməsi zina cinayəti sayılmır. Lakin bu halda da şəxsin əməli inzibati xəta kimi qiymətləndirilib daha yüngül cəza ilə cəzalandırılırdı.

Əbu Hənifəyə görə, oğlanbazlıq və lezbiyan cinsi əlaqənin cəzası təzirdir. Hüquqşünaslar arasında lezbiyan cinsi əlaqənin hüdud cəzası tələb olunmadığı barədə fikir birliyi də mövcuddur. Osmanlı praktikasında əxlaqsızlıq cinayətinə ağır əmək cəzası verilirdi. Ölü və heyvanlarla cinsi əlaqədə olmaq təzir cəzasını tələb edir. Zina cinayətində zərərçəkmişin razılığı bunu etmək üçün əsas ola bilməzdir; əksinə, əmələ razılıq verən şəxsin həm də təqsirkar olmasını təmin edir.

Zina cinayətini sübut etməyin üç yolu var. Bunlar; dörd tam fəaliyyət qabiliyyətli, müsəlman və kişi şahidlər gördüklərini and içərək bəyan etmələri, zinakarın dörd dəfə zina cinayətini etiraf etməsidir. Evli olmayan qadının hamilə qalması, onun cinsi əlaqədə olmasını sübut etdiyindən zina cinayəti sabitləşir. Şahidlərdən dördünün eyni vaxt və yerdə eyni cinsi əlaqəni görməsi tələb olunur. Bu hal olmasa zina təsdiqlənməyəcəkdir. Əgər şahidlərin hamısı və ya bir neçəsi şəhadət verməkdən imtina edərsə və bu rəqəm dörddən az olarsa, zinanın təsdiqini tapmamış sayılır. Etiraf, zinakarın zina etdiyini məhkəmədə bəyan etməsidir. Əgər zina etdiyini etiraf etməsi hakim tərəfindən müəyyən edilən şəxs sonradan etirafından imtina edərsə, zina təsdiqini tapmamış sayılır.

Cinayətini etiraf edən şəxsin cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatıb-çatmadığı araşdırılır. Əgər bu hal təsdiqlənərsə cəza verilir. Azyaşlı uşaqlar və ruhi xəstələr onların razılığı ilə cinsi əlaqədə olsalar belə, onların etdikləri əməli dərk etmədikləri üçün hüdud cəzası tətbiq edilmir, lakin bu şəxslərə qarşı təhlükəsizlik və maarifləndirmə tədbirlərinin tətbiqi mümkündür.

Zina edən şəxsə veriləcək cəza, onun evli və ya subay, azad, kölə və ya cariyə olmasına görə müxtəlifdir. Əgər zina cinayətini törədən şəxs kişi və ya qadın olmasından asılı olmayaraq subaydırsa, 100 çubuq və sürgün ilə cəzalandırılır. Hənəfilərə görə, sürgün hədd deyil, təzir cəzasıdır və buna yalnız ölkə başçısı qərar verə bilər [12].

İmam Malik isə sürgün cəzası baxımından kişi və qadını bir-birindən ayırmışdır. Belə ki, bu cəza qadının islahına səbəb olmayacağını, əksinə onu yoldan çıxaracağına görə yalnız kişilərə şamil edilirdi. Zina edən şəxs möhsandırsa(evli) daşqalaqla öldürmə cəzası alırdı. Möhsan olmanın şərtləri; nikahlı olmaq, azad olmaq, müsəlman olmaqdır. Əgər möhsan möhsan olmayan şəxslə zina edərsə, möhsan daşqalaq, qeyri-möhsan isə dəyənəklə cəzalandırılır [12].

Qeyri-müsəlmanlar zina etdiyi halda daşqalaq deyil, cəldə (çubuq) ilə cəzalandırılırdı. Kölələrin və cariyələrin cəzası azad qadınların cəzasının yarısı qədərdir. Burada cəzanı yüngülləşdirən səbəb həmin insanların azad olmamasıdır.

Əbu Hənifəyə görə, cinayətkarın hökm verməkdən əvvəl qurbanı ilə evlənməsi hədd cəzasını azaldır. Birliyə görə, sonradan bağlanan nikahın əvvəllər törədilmiş cinayətə heç bir təsiri yoxdur.

Azərbaycan Respublikasının Qanunvericiliyinə nəzər salsaq görərik ki, Cinayət Məcəlləsinin 20-ci fəsli "Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər" kimi adlandırılmışdır. İnsanın azadlığı və toxunulmazlığı çoxsəpkili bir anlayışdır. Bu anlayış da şəxsiyyətin cinsi toxunulmazlığını və cinsi azadlığını əha-

tə edir. Başqa sözlə, kiminlə və hansı formada seksual tələbatın təmin edilməsi yetkin şəxsin hüququdur. Seksual münasibətlər insan həyatının ayrılmaz hissəsidir. Belə münasibətlər mərkəzi normalara, müəyyən hissəsi isə ailə qanunvericiliyinin normalarına əsaslanır və cinayətlərin nikahdankənar və nikahdaxili münasibətləri ilə realizə olunur.

Qüvvədə olan cinayət qanununda aşkar seksual zorakılığa görə, habelə yetkinlik yaşına çatmayanların cinsi əxlaqını kobud surətdə pozan əməllərə görə məsuliyyət müəyyən edən normalar nəzərdə tutulmuşdur [1]. Azərbaycan Respublikası CM-in müvafiq fəslində zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcbur etmə, on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə, on altı yaşına çatmayan şəxsə qarşı əxlaqsız hərəkətlər kimi cinayətlər qeyd edilmişdir.

CM-in 149-cu maddəsində zorlamaya aşağıdakı kimi anlayış verilmişdir: zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma [2].

CM-in 150-ci maddəsində seksual xarakterli zorakılıq hərəkətlərinə aşağıdakı kimi anlayış verilmişdir: zərərçəkmiş şəxsə və ya başqa şəxslərə zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə [2].

CM-in 151-ci maddəsində seksual xarakterli hərəkətlərə məcbur etməyə aşağıdakı kimi anlayış verilmişdir: əmlakının məhv edilməsi, zədələnməsi və ya götürülməsi hədəsi ilə və yaxud zərərçəkmiş şəxsin maddi və ya sair asılılığından istifadə etməklə onu cinsi əlaqəyə girməyə, uşaqbazlığa və ya seksual xarakterli digər hərəkətlərə məcbur etmə [2].

CM-in 152-ci maddəsində on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etməyə aşağıdakı kimi anlayış verilmişdir: on dörd yaşına çatmış, lakin on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə [2].

CM-in 153-ci maddəsində on altı yaşına çatmayan şəxsə qarşı əxlaqsız hərəkətlərinə aşağıdakı kimi anlayış verilmişdir: on altı yaşına çatmayan şəxsə qarşı zor tətbiq etmədən əxlaqsız hərəkətlər törətmə, habelə həmin şəxsi cinsi zorakılıq hərəkətləri və ya seksual fəaliyyəti müşahidə etməyə cəlb etmə.[2]

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddəalarına nəzər yetirsək, şəxslərə qarşı söz atmaq, cinsi məzmunda narahatedici sözlər və hərəkətlər, şəxsin intim zonasına daxil olmaq və ya ona toxunmaq kimi əməllərə görə birbaşa məsuliyyət nəzərdə tutulmamışdır. Belə hərəkətlər cəmiyyətimizdə "pozğunluq" kimi qiymətləndirilməklə çox rast gəlinən hallardandır. Pozğun dedikdə, əxlaqı pozulmuş, əxlaqsız şəxs başa düşülür [6]. Ölkəmizdə gündəlik həyatda əsasən qadın cinsinə məxsus olan şəxslər küçələrdə hərəkət edərkən, ictimai nəqliyyatdan istifadə edərkən və yaxud hər hansı kütləvi tədbirdə kişilər tərəfindən cinsi təcavüzə məruz qalırlar. Cinsi təcavüz dedikdə, cinsi məzmunda təkliflərin edilməsi, israrlı şəkildə tanış olma istəyi və yaxud qadınların müxtəlif nahiyələrinə (saçına, paltarına, bədəninə və s.) toxunma kimi insidentlər başa düşülür.

Göstərilənlərlə bağlı 2023-cü il tarixində yuxarıda göstərilən məzmunda baş vermiş hadisəyə nəzər yetirək. Naməlum şəxs sentyabrın 1-də saat 20 radələrində piyadaların hərəkət etdiyi ərazidə mağazadan çıxan iki qadına yaxınlaşıb. O, qadınların birinin geyiminə və bədəninə əl ataraq əxlaqsız hərəkətlər etməyə başlayıb. Qadının qışqırmasını və ətrafa digər şəxslərin yaxınlaşdığını görən şəxs daha sonra qaçaraq ərazidən uzaqlaşıb. Polisin həyata keçirdiyi tədbirlərlə hadisəni törədən şəxsin Qobustan rayonu, Şıxzahırlı kənd sakini 1994-cü il təvəllüdlü R.Babayev (şərti) olması müəyyən edilib. O, saxlanılaraq ərazi üzrə Səbail RPİ-nin 39-cu Polis Bölməsinə gətirilib və barəsində inzibati protokol tərtib edilib. Saxlanılan şəxs daha sonra Səbail Rayon Məhkəməsinə aparılıb. O, məhkəmədə deyib ki, geyim mağazasında 2 qadının çıxdığını görmüş, içkinin təsiri altında öz hərəkətlərini idarə edə bilmədiyinə görə onlardan birinə yaxınlaşaraq əli ilə ona toxunmuş, narahat etmişdir. Səbail Rayon Məhkəməsi-

nin qərarı ilə xuliqanlıq etmiş şəxsə 5 sutka inzibati həbs cəzası verilib [4].

Göstərilən tipdə hadisələrin baş verməsi halında qanunvericiliyimizdə istinad etmək üçün uyğun norma tapa bilməyib, məcburi olaraq həmin əməli ictimai təhlükəlilik dərəcəsinə görə xuliqanlıq (CM-in 221-ci maddəsi) və xırda xuliqanlıq (İXM-in 510-cu maddəsi) kimi qiymətləndiririk.

Xarici ölkələrin qanunvericiliyinə müraciət etsək görərik ki, artıq xeyli sayda xarici ölkələr bu əməli sanksiyalaşdıraraq qanunvericiliklərinə daxil etmişlər. Həmçinin göstərilən halların qarşısının alınması və azalması ilə bağlı təşkilatlar yaradılmışdır.

Söz atmaq və ya təcavüz 765 nömrəli Türk Cəza Qanunun 421-ci maddəsində “Qadınlara və (...) kişilərə söz atanlar üç aydan bir ilə qədər, təcavüz edənlər isə altı aydan iki ilə qədər azadlıqdan məhrum etmə cəzasına məhkum edilir” təsbit edilmişdir. Təcavüz dedikdə “hər hansı bir şəxsə qarşı onun razılığı olmadan cinsi əlaqədə olma və ya seksual xarakterli hərəkətlər etmə və yaxud cəhd etmə səviyyəsinə çatmayan, söz atma sərhədini keçən ədəb və iffətə qarşı olan hərəkətlər” başa düşülür. Türkiyə Ali Məhkəməsi isə həmin maddəyə belə anlayış vermişdir: “Fit çalmaq, zərərçəkmişin arxasında düşərək onun şəxsi və intim zonasına daxil olunması, cinsi orqanını işarə etməsi və ya göstərməsi, iki və ya daha çox sevgi mesajı (məktubu) yazması, çimdik atması, müvafiq əl-qol hərəkətləri ilə cinsi əlaqədə olmaq istəyini bildirməsi başa düşülür. Həmin əməl birbaşa qəsdlə törədilir. Və göstərilən əməl şifahi, yazılı şəkildə və ya hərəkətlə törədilə bilər. Bədənə toxunma ilə əhatə olunan əməlin ani olaraq edilməli və davam etməməlidir. Əks halda başqa cinayət əməlinin tərkibi yaranacaqdır. Əgər bədənə toxunma bir neçə dəfə və ya davamlı şəkildə olarsa bu artıq seksual xarakterli zorakılıq hərəkətləri kimi qiymətləndirilməlidir. Belə hərəkətlər əsasən ictimai nəqliyyatda yanaşı oturan sərnişinin ayaqlarına ayaqların sürtülməsi, bədənin müxtəlif nahiyələrinə toxunulması zəminində baş verə bilər” [8].

Almaniya Federativ Respublikasında təcavüz və söz atma kimi hərəkətlər cinayət əməli kimi qəbul edilir. Alman Cəza Qanunun 174-cü və 184-cü maddələrinə görə, hər hansı şəxsin bədəninə təmas etmək və ya cinsi orqanını göstərmək cinayət əməli kimi qiymətləndirilir. Burada şəxsin sözlə təcavüz etməsi halı da ayrıca vurğulanmışdır. Sözlü şəkildə edilən təcavüzə 2 ilədək azadlıqdan məhrum etmə və ya cərimə növündə cəza tətbiq olunur. Bədənə toxunma ilə bağlı olan əmələ ictimai təhlükəlilik dərəcəsindən asılı olaraq 3 aydan 5 ilədək azadlıqdan məhrum etmə növündə cəza tətbiq edilməsi nəzərdə tutulur [5].

İtaliya Respublikasının Cinayət Məcəlləsinin 612-ci maddəsində “stalking” əməli qeyd olunmuşdur. Həmin maddəyə görə, bir şəxs başqa bir şəxsin cinsi azadlığını və toxunulmazlıq hüququnu pozaraq cinsi məzmunlu davranışlar edirsə, cinsi təcavüz cinayətini törətmiş sayılır [7].

“Stalking”-ə geniş məzmunda baxsaq- başqa bir şəxsə təkrarlayan şəkildə zəng etmək, mesajlar və ya məktublar göndərmək yolu təqib və narahat edən pozğun şəxslərin əməlləri başa düşülür. Belə ki, pozğunluq edən şəxsin zərərçəkmişin yollarına çıxması, onu izləməsi, evinin yaxınlığına və iş yerinə gəlməsi, tez-tez sosial şəbəkələrdən və ya digər əlaqə vasitələrindən istifadə etməklə narahat etməsi kimi davranışları əhatə edir. Təkrarlılıq dedikdə, eyni bir zərərçəkmiş üzərində birdən çox eyni xarakterli hərəkətlər etmək başa düşülür.

Həmin əməlin ictimai təhlükəlilik dərəcəsinə görə 1 ildən 6 il 6 ayadək azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutulmuşdur. Şəxsin cinayət məsuliyyətinə cəlb olunması üçün hadisənin baş verməsindən 6 ay keçməmiş bu barədə şikayət edilməlidir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 152-1-ci maddəsi aşağıdakı qaydada əlavə edilməsi tövsiyə edilir.

**152-1. Pozğunluq hərəkətləri etmə**

Zərərçəkmiş şəxslə cinsi əlaqədə olma, uşaqbazlıq və ya seksual xarakterli digər zorakılıq hərəkətləri etmə, əxlaqsız hərəkətlər törətmə, cinsi zorakılıq hərəkətləri və ya seksual fəaliyyəti müşahidə etməyə cəlb etmə kimi hərəkətlərə əhatə olunmayan, həmin şəxsin intim zonasına daxil olaraq təkrarlanmayan və davam etməyən təmas etmə, verbal ya qeyri-verbal formada

seksual məzmunlu narahatedici təkrarlanan hərəkətlər etmə

*- bir ildən iki ilədək müddətə islah işləri və ya bir ildən üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.*

Həmçinin göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin [3] 524-1-ci maddəsinə aşağıdakı qaydada əlavə edilməsi tövsiyə edilir.

**524-1. Xırda pozğunluq**

Hər hansı şəxsə qarşı verbal ya qeyri-verbal formada seksual məzmunlu narahatedici hərəkətlər etmə

- *üç ayadək* müddətə inzibati həbs tətbiq edilir.

**İstifadə edilmiş ədəbiyyat:**


1. “Şəxsiyyət əleyhinə olan cinayətlər” mühazirə materialı. İ.Məmmədli Polis Akademiyası. https://pa.edu.az/library/1/11/23_m._23.pdf
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi https://e-qanun.az/framework/46947
3. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi https://e-qanun.az/framework/46960
4. https://cebheinfo.az/hadise/qadinlara-qarsi-exlaqsiz-hereket-eden-sexs-tutuldu
5. https://az.wiktionary.org/wiki/pozğun
6. İtaliya Cinayət Məcəlləsi. 2024-cü il. https://www.poliziadistato.it/statics/21/stalking.pdf
7. Türk Cəza Qanunu. 2024-cü il https://www.mevzuat.gov.tr/mevzuat?MevzuatNo=5237&MevzuatTur=1&MevzuatTertip=5
8. “Agustus Çağında Cinsel Suçlar ve Lex Lulia De Adulteriis Coercendis”, Dç. Dr. Tamer Diler Homer Kitapevi, Istanbul, 2007, s.13
9. “Toplumsal İnsanın Evrensel Doğası ve Cinsel Suçlar”. Cahit Can, Seçkin Yayınevi, Ankara, 2002, səh. 463
10. Hasanov Eldar. İslam Hukuku ile Karılatırmalı Olarak Yahudi Hukukunda Zina ve Benzeri Cinsel Suçlar. (Yayımlanmamış Yüksek Lisans Tezi), MÜSBE, 2007
11. 22 ÜNAL ÖZKORKUT, Nevin. “İSLAM CEZA HUKUKUNDA KADIN”. Ankara Üniversitesi Hukuk Fakültesi Dergisi 56, sy. 2 (Haziran 2007): 83-95. https://doi.org/10.1501/Hukfak_0000000329.
12. ÇELEN, Mehmet, İslam Hukuku’nda Zina ve Recm, Denge Yayınları, İstanbul, 2006, s.89

Law Collections from Mesopotamia and Asia Minor. Paperback. January 1, 1997 by Martha T.Roth https://www.g2rp.com/pdfs/LawCollectionsFromMesopotemiaAndAsiaMinor.pdf


**Исмаил АМИРЛИ**

## УГОЛОВНАЯ ОТВЕТСТВЕННОСТЬ ЗА ИЗВРАЩЕНИЕ

### РЕЗЮМЕ

Если мы посмотрим на статьи Уголовного кодекса Республики Азербайджан, прямая ответственность не предусмотрена за действия, такие как домогательства к индивидуумам, произнесение сексуально тревожных замечаний и действий, вход в интимную зону человека или его касание. Такие действия часто называются в нашем обществе "извращением". Когда мы говорим о "извращении", мы понимаем человека, потерявшего мораль, нравственного человека. В нашей стране в основном лица женского пола подвергаются сексуальным домогательствам при движении по улицам, использовании общественного транспорта или на массовых мероприятиях от лиц. Когда мы говорим о сексуальном насилии, они сталкиваются с такими инцидентами, как предложение сексуальных услуг, настойчивые попы

***Ключевые слова***: половая свобода, половая неприкосновенность, преступление, извращение, ответственность

**Ismail AMİRLİ**

## CRİMİNAL LİABİLİTY FOR PERVERSİON

## SUMMARY

When we look at the articles of the Criminal Code of the Republic of Azerbaijan, direct responsibility has not been envisaged for actions such as harassing individuals, making sexually disturbing remarks and actions, entering a person's intimate zone, or touching them. Such actions are often labeled as "perversion" in our society. When we say "perversion," we understand a person who has lost morals, an immoral person. In our country, mainly individuals belonging to the female sex are exposed to sexual harassment when moving on the streets, using public transport, or at any mass event by individuals. When we talk about sexual assault, they encounter incidents such as making sexual proposals, persistent attempts to get acquainted, or touching various parts of women's bodies (hair, clothing, body, etc.). In order to prevent such cases and to ensure that the perpetrators of these actions are justly prosecuted, " perversion" is considered an independent act, and the person who committed it must bear criminal and administrative responsibility.

***Key words*:** sexual freedom, sexual immunity, crime, perversion, responsibility